

SABİR HÜSEYNOV

# Məni unutmayın...

*(xatirə-oçerk)*

Yayın qızmar günləri idi, hər tərəf sanki od tutub yanırdı. Orta məktəbi qurtarmışdım. Ali məktəbə qəbul olmaq üçün sənədlərimi hazırlayırdım. Bakıya gəlmək, tələbə olmaq, sonra tarix müəllimi kimi doğma məktəbə qayıtmaq arzusu ilə yaşayırdım.

Saatlarla şiş ucları zərdən tökülən dağlara, Zil qayaya, Yelatana, Duzdağa baxırdım. Qürurlu, vüqarlı, barlı, bəhrəli dağlar sanki mənə uğurlu yol arzulayırdı. Qartalların zirvələrdə məğrur duruşuna tamaşa etməkdən yorulmazdım. Ürəyimdə olan istəyi, sarışın bir qızın həsrət dolu sevgisini dağlara əmanət edib bir yay səhəri atamla Bakıya gəldim.

Səkkizinci kilometr qəsəbəsində yaşayan yaxın qohumumuz Vəligildə qalası olduq. Vəli dayı kəndimizin sayılıb-seçilən ziyalılarından biriydi. Zavodda mühəndis işləyirdi. Həyat yoldaşı Tamella qonşu kənddən idi. Bir-birinə can deyib, can eşidən bu ailə xoşbəxt günlərini yaşayırdı... Atamın və qohumlarımın təkidindən sonra ürəyim istəmədiyi tibb texnikumuna qəbul oldum. Arzuladığım, könül verdiyim peşəyə qovuşmadığım üçün dilxor olmuşdum.

Tələbə vaxtı mən Vəli dayıgildə, İmranla bir otaqda qalırdım. İmran Vəli dayının bacısı oğlu idi. Xalq Təsərrüfatı İnstitutunda oxuyurdu. Axşamlar zavodda işləyir, gündüzlər dərsə gedirdi. Qonşuluqda olan şəmkirli Nazimlə möhkəm dost idilər. Şəhərə gəzməyə gedəndə məni də özləri ilə apardılar. Tez-tez dənizkənarı parka gəzməyə gedirdik. Ağrılı-acılı, mənim üçün bir qədər də çətin günlər idi. İsti ana nəfəsinə, ata nəvazişinə həsrət qalmışdım. İşıqlı bir xəyalla, sonsuz bir arzu ilə yaşayırdım. O illərdə İmranın mənə köməyi, məsləhəti çox olub. Məni öz doğma qardaşı kimi istəyib. Bütün çətinliklərimi ona demişəm, ondan məsləhət almışam. İki il qardaş kimi bir otaqda qalmışıq.

Vəli dayının böyük qardaşı Yunis sayılıb-seçilən ziyalılardan idi. İki gündən bir də olsa qardaşına baş çəkməyə gələrdi. Yunis dayının həyat yoldaşı Gülarə xala əslən Zəngilan rayonunun Mincivan qəsəbəsindən idi. Çox ağır, ləyaqətli, ailəcanlı bir insan idi. Hər dəfə onlara yolumuz düşəndə bizə öz doğmaları kimi qulluq edər, yeməklərinin ən yaxşısını bizə çəkərdi, övladlarından ayırmazdı bizi.

1970-ci ilin iyun ayı...

...Həyatımın ən kədərli günləri, dəqiqələri idi... Qaldığımız evin arxasındakı qovaq ağacının altında göz yaşlarım bulaq kimi çağlayırdı. Qəflətən çiynimə bir əl toxundu. Qaratel xalanın yoldaşı Mirzə idi. Boynumu qucaqlayıb, üzümdən öpdü, ağlamağımın səbəbini soruşdu:

-Nə olub, niyə ağlayırsan, bəlkə çətinliyin var?

Utandığımdan ona dərdimi deyə bilmədim.

-Anam yadıma düşüb, ona görə kövrəlmişəm, - deyib yalan danışdım.

Mirzə dayı da kövrəldi, gözləri dolmuşdu. Evin arxasındakı bağda oturub xeyli söhbət etdik. Mirzə dayı uşaqlıq illərindən, Lerikin əsrarəngiz gözəlliklərindən ürək dolusu danışırdı:

-Hər dəfə xatirələrə qapılanda həmişə atam Bağı kişi, anam Bilqeys yadıma düşür. Ağır seyid nəslindən olub. Atam bizim yaxşı, xeyirxah insan olmağımız üçün çalışırdı. Heç yadımdan çıxmır. Bir dəfə meşədən odun gətirəndə şələm ağır idi. Atam məni danlayıb dedi: "Oğul, sən hələ uşaqsan, belə ağır yükün altına girmə". Odun şələsini atam özü götürdü. Ümumiyyətlə, mənim atam, anam əsl fədakarlıq nümunəsi idi. İstər balaları-



na, istər qohum-əqrəbaya, istərsə də elobaya münasibətdə. O, heç vaxt bizi cəzalandırmazdı, günahımız olanda səmimi söhbət edir, səhvlərimizi başa salmağa çalışır, nəslin, kökün əməllərinin davamçısı olmağı tövsiyə edirdi. Tez-tez deyərdi ki, heç kimə pislik etməyin, siz seyid nəslinin damamçılarısınız. Bilin ki, kim sizə pislik etsə, Allahın cəzasına məruz qalar.

Mirzə dayı danışdıqca kövrəlirdi. Üzündə bir səmimiyyət duyğusu, nurlu ifadə vardı. Sağollaşıb ayrılmaq istəyirdim. Ayağa duranda dedi ki, gedək bizə, Qaratel xalan yaxşı borş bişirib. İşim çox idi, səhərə dərslərimi hazırlamalıydım. Qaratel xala yaxın qohumumuz idi. Atası Alı kişi, anası Qönçə nənə onu tərbiyəli, bütöv bir övlad kimi böyütmüşdü. Qardaşı Yunis onu Bakıya gətirmişdi. Kənddən onu istəyənlər olsa da, heç kimə könül verməmişdi.

Günlərin birində Mirzə onu görmüşdü. Kimlərdən olduğunu öyrənmiş, ətraflı məlumat topladıqdan sonra qohumlarından Qaratelə xəbər göndərmişdi. Qaratel də Mirzənin məhəbbətinə biganə deyildi. Bu qaragöz, qaraqaş qız Mirzənin gündüzünü gecəyə çevirmişdi. Mirzə ürəyi tutan, istədiyi bu qızdan ayrılmaq istəmirdi. Atalar yaxşı deyib, "sən saydığını say, gör fələk nə sayır".

Günlərin birində Mirzə Qaratellə danışıb, onu qaçırır. Bu xəbəri eşidəndə Qaratelin qardaşları çətin vəziyyətə düşür. Yunis dayı əsəbləri tarıma çəkilmiş qohumları sakitləşdirib:

-Bir qız bir oğlanındır, - deyir. Mirzənin zəhmətkeş olduğunu, gözəl ailə başçısı olacağını söyləyir.

Həyat Yunis dayının dediklərinin doğru olduğunu sübut etdi. Mirzə onun erimadını doğrultdu. Layiqli övladlar böyütdü.

O günləri Mirzə dayı belə xatırlayır:

-Ömür insana bir dəfə verilir. Gərək onu elə yaşayasan ki, sonradan keçən hər mənasız gün üçün təəssüf hissi keçirməyəsən. Həyat dolur-boşalır, nəsillər gəlir-gedir. Amma əməllər qalır. Zamanı, vaxtı tutub saxlayan, dolduran nəcib əməllər sahibinin heykəlinə dönür, onun adını yaşadır, insanlığın ikinci ömrünə çevrilir.

Nəcib əməllər isə qəlbi məhəbbətlə dolu olan Mirzə kimi adamlara məxsus olur. Bu məhəbbətin işığı, nuru onların üzünə, sifət cizgilərinə hopur. Bu məhəbbət başqalarının yoluna da işıq səpələyir.

Beləcə, bir-birimizə yarıya-yarıya, vaxtın azlığından gileylənə-gileylənə, qayğıların içində aza-aza ömrümüzü əridirik zaman adlı bir qazanın içində. İllər görkəmimizdə, saçımızda iz buraxır. Dəyişirik, gəncləşirik, qocalırıq. Amma deyiyim o məhəbbət ki, var, anamızın südüylə hopub canımıza, işləyib iliyimizə, qocalmır, həmişə cavan qalır. Uşaq vaxtı əlimizdən tutur, cavan vaxtı yol göstərir. Saç-saqqal ağaranda isə ruhumuzu kökdən düşməyə qoymur. O ülvi məhəbbət bütün yaxşılıqların, xeyirxahlıqların, istək və arzuların mayasında olur.

Hər bir insanın dəyəri onun gördüyü işlərlə, cəmiyyətə, adamlara verdiyi xeyirlə ölçülür. Həyat adlı fəlsəfəni dərk edən hər bir kəs həyatda tutduğu vəzifədən asılı olmayaraq, özündən sonra bir yadigar qoymaq arzusu ilə yaşayır. Mirzə





də belə insanlardan biri idi. Onu tanıyanlar, sözün əsl mənasında onun iki gözəl keyfiyyətini - insanpərvərliyini və xeyirxahlığını yüksək qiymətləndirirdilər.

Mirzə bu mərtəbəyə çatmaq üçün ömrün daşlı-kəsəkli, enişli-yoxuşlu yollarında həyatını kərpic-kərpic öz əllərilə qurub, öz zəhmətilə ucaltmışdı. Bu keşməkeşli dünyaya gələndə onun bəziləri kimi gələcəyini şərtləndirəcək, firavanlığını təmin edəcək heç nəyi yox idi. Nə varlı-karlı valideynləri, nə də ona arxa ola biləcək qohumları vardı. Atası Bağı kişinin ona verə biləcəyi bircə təmiz adı və zəhmətsevərliyi idi.

Bu gün böyük inam hissi ilə demək olar ki, Mirzə öz oğulluq borcunu ləyaqətlə yerinə yetirib, ömrünü ləyaqətlə yaşayıb və bu ömürdən çoxlarına işıq düşüb.

Mirzənin qardaşı Məhəmməd bizimlə həmyaşıd idi. Zəhmətkeşliyi ilə bərabər, söz götürən oğlan deyildi. Haqqını heç vaxt kiminsə tapdamağına yol verməzdi. Bütün bunlarla yanaşı, bizə hörmət və ehtiramla yanaşardı.

İndi o vaxtlardan illər ötüb, Məhəmməd də yaşlaşıb, oğul-uşaq sahibi olub. Şirin-şəkər nəvələrinin əhatəsində özünü xoşbəxt sanır.

Mirzə Məhəmmədi çox istəyirdi. Məhəmməd onun arxası, köməyiydi. Qaratel də Məhəmmədin sözünü yerə salmazdı. Ona öz doğma övladı kimi qayğı göstərər, onu övladlarından ayırmazdı.

1972-ci il... Mən Vəli dayının evindən çıxmışdım... Harada qalacağımı fikirləşirdim. Həddindən artıq narahat idim. Ev axtarışında olduğumu Mirzə dayıya demişdilər.

Dərsdən qayıdanda yorğan-döşəyimi yerində görmədim. Vəli dayı gülə-gülə:

-Daha burda qalmayacaqsan, yorğan-döşəyini Mirzə aparıb, onlarda qalacaqsan, - dedi.

Öz-özümə düşünürdüm, mən onlarda necə qala bilərəm? Mirzənin uşaqları, qardaşı o evə ancaq yerləşirlər. Özümə münasib bir yer axtarmaq barədə düşünürdüm. Mirzə dayı arxamca gəlmişdi:

-Bu gündən bizimlə qalacaqsan, sən də bizim övladlarımızdan birisən, başqa yer axtarma.

Mirzə dayı məni öz evlərinə gətirdi. Mənə elə isti münasibət göstərdilər ki, elə bildim öz evimizdəyəm. Düzdü, mən onlarda iki ay qaldım, sonra isə rayonda təcrübədə oldum.

Qaratel xala, Mirzə dayı məni Rənadan, İradədən, Rahimdən, Məhəmməddən ayırmadılar. O günləri xatırlayanda, bu böyük insanların məhəbbət dolu baxışlarını xatırlayıb kövrəlirəm. Mirzə dayının evi mənim üçün müqəddəs bir ocaq idi. Bu ocaqda böyüyən, boya-başa çatan uşaqlar isə qardaş-bacılarım olub.

Xatirələrə qovuşan o illərə qayıdanda, onlarda qaldığım günləri xatırlayanda gözlərim önündə iki qoşa qanad - Mirzə dayı ilə Qaratel xala canlanır. O evə gedəndə qapını üzümə açan Mirzə dayının: "Üzünü görək, neçə vaxtdır, harada qalmısan" - deyən gülümsər, xoş üzünü necə unutmaq olar?

Bu ev təkcə mənə yox, İmrana da, İbrahimə də, Fəxrəddinə də doğma olub. Bu evi öz evimiz bilmişik. Bu evin qapısını ürəklə açmışıq. Çünki bu evdə Mirzə dayı, Qaratel xala kimi qayğıkeş, xeyirxah insanlar var idi.

O vaxtdan illər ötdü... Tale hərənin ömür kitabını istədiyi kimi yazdı. Hər birimizin başı öz işinə, gücünə qarışmışdı. Vaxtaşırı Mirzə dayıdan, Qaratel xaladan xəbər tuturdum. Hər dəfə onlarla görüşəndə ömrümdən keçən illərə dönür, onların fədakarlığından qürur duyurdum.

Qaratel xala zəhmətkeş qadın idi. Metroda işləyirdi, işi çətin olsa da heç vaxt yoruldum deməzdi. Uşaqları ilə nəfəs alan, onların qayğıları ilə yaşayan bu nəcib insan, Mirzənin qohumları tərəfindən də sevilir, ona böyük hörmət bəslənirdi. Elə mən də, İmran da onu öz anamız bilirdik.

Hər dəfə kəndə yolum düşəndə atam Mirzə dayını soruşar, Qaratel xalanı xəbər alar, onların haqqında ürəkdolusu danışardı. Bir dəfə Qaratel xala Vəli dayı ilə iş yerimə gəlmişdi. Narahatlığı üz-gözündən oxunurdu, Vəli dayı xəstələnmişdi. Qaratel xala onu tək buraxmırdı. Vəli dayının düşdüyü vəziyyət, başına gətirilən müsibətlər haqqında danışan Qaratel xalanı ağlamaq tutmuşdu. Düzü bu mənzərə məni də sarsıtmışdı. Vəli dayının gənclik, tələbəlik illəri yadıma düşmüşdü. Şax qamətli, boylu-buxunlu, qızların ürəyini yandırıb keçən Vəli dayı, sanki yüz il qocalmışdı... Qaratel xalanın qardaş istəyi, qardaş məhəbbəti, yanaqları boyunca axan göz yaşları məni də kövrəltdi.

Bir neçə dəqiqə heç birimiz danışmadıq. Ara-

mızda sükut yarandı. Qaratel xala dəsmalı ilə göz yaşlarını silib:

-Səndən küsmüşəm, Mirzə dayın da küsüb. Əvvəllər tez-tez gələrdin, axır vaxtlar bizi unutmusan.

Qaratel xala haqlı idi, üzrxahlıq edib, vaxtaşırı gələcəyimi söylədim. Qapıdan çıxanda dönüb üzümə baxdı:

-Gəlmədiyin ayları, günləri dəftərimə yazmışam, yolunu gözləyəcəm.

Bu sözləri o qədər səmimi, o qədər ürəklə dedi ki, bütün günü iş yerimdə özümə yer tapa bilmədim. Verdiyim vədə əməl edib, bazar günü Jdanov (indiki Zərdabi) küçəsindəki, dördüncü mərtəbədəki evlərinin qapısını döydüm. Qapını Mirzə dayı açdı. Məni doğma qardaşı kimi qarşıladı. Uşaqlarla görüşüb, Mirzə dayı ilə üz-üzə oturduq. Qardaşı Məhəmməddən söz açdı, ona çox güvənirdi. Mirzə dayı haqlı idi. Məhəmməd saf təbiətli, sözübütöv, ağıllı bir insandı. Bizi öz yaxını bilərdi. Səmimiyyətinə, mərdliyinə söz ola bilməzdi, hərdən domino oynayanda cığallıq etməyinin də ayrı ləzzəti vardı. Uşaqlara əsəbiləşəndə hamı özünü yığışdırırdı.

Mirzə dayı zarafat etməyi xoşlayar, deyib-gülməkdən ləzzət alardı. Qaratel xala bizə yemək çəkəndə Mirzə dayı zarafatla deyərdi:

-Yeməyin yaxşısını qohumlarına çəkmisən, deyəsən biz ac qalacağıq.

Qaratel xala gülümsəyib onun zarafatından incimәzdi:

-Hamınıza eyni çəkmişəm, ola bilər qohumlarıma bir tikə artıq düşüb.

Belə söhbətlər heç kimin əhvalını pozmazdı. Əksinə, süfrədə hamı rahat-rahat yemək yeyərdi.

...Mirzə dayının oğlu Rahim atalı günlərini belə xatırlayır:

-Doğrudan da atanın şöhrəti, xoş sədası hər övlad üçün, qardaş-bacı üçün ən böyük xoşbəxtlikdir. Yaxşı insanlar, yaxşı əməl sahibləri hamı tərəfindən sevilir, qiymətləndirilir.

Müqəddəs kitabımız "Qurani-Kərim"də verilən müdrik kəlamlarda deyildiyi kimi "Yaxşı əməl edənlər yaradılmışların ən yaxşısıdır". Yaxud da, "Əl-mürsəlat" surəsində deyildiyi kimi: "Biz yaxşı əməl sahiblərini mükafatlandırırıq".

Nizami Gəncəvinin bir kəlamını həmişə xatırlayıram:

*Yaxşılığı əzəldən adət etsən özünə,*
*Yaxşılığın hər yanda qapı açar üzünə.*

Mən belə fikirləşirəm ki, atamın etdiyi yaxşılıqlar biz qardaşlar, bacılar üçün fərəhdir, başucalığıdır. Atam haqqında nə deyə bilərəm? Xalqımızın tarixlər boyunca yaşatdığı ən gözəl adətlərdən biri ağsaqqala, böyüyə hörmətdir. Ağsaqqal adına ehtiramı, ağsaqqal yoluna sədaqəti, ağsaqqal ədəb-ərkanına məhəbbəti biz qardaşlar atamızdan, anamızdan öyrənmişik. Yaxşı demişlər, həyatda öz yerini tapa bilmək böyük səadətdir. Belə olanda yaşamaq da, işləmək də, yaratmaq da ürəyəyatan və mənalı olur. Bizim də atamız belə insanlardan olub. Atam həmişə deyərdi:

-İllər ötür, qayıtmır, yollar isə geri qayıdır. Ləyaqətli, gərəkli insanın ömür-həyat yolları kimi. Bax, beləcə bir ömür yaşayıb atam, anam, yaddaşlara, ürəklərə köçüblər. Atam-anam gecələr yatmayan çaylar kimi daim narahat idilər. Millətini, torpağını sevmək, insanlara kömək etmək üçün gəlmişdilər bu dünyaya. Bir ömür imkanında çoxlarına arxa, kömək oldular. Yaxşılıq üçün yandılar, yağı özündən olan çıraqlar kimi nur saçdılar. Onlar addımlayan, sönməyən, sengiməyən əqidə, insanlıq, vətəndaşlıq işığı idilər.

Mirzə dayı ilə son görüşümüz Sabunçu xəstəxanasında oldu. Xəstələnmişdi, onu ziyarətə getmişdim. Bir az sınıxmışdı, ötüb-keçənlərdən xeyli söhbət elədik. Hiss edirdim ki, xəstəxana divarları arasında sıxılır...

Bir neçə gündən sonra dünyasını dəyişdiyini eşitdim. Heç cür özümü inandıra bilmirdim ki, Mirzə dayı bu dünyadan köçə bilərmiş... Yox, o, heç vaxt ölməyib, ölməyəcək də! Çünki yaddaşlarda yaşayır, qəlbinin döyüntüləri hərarətini, işığını bağışladığı onlarla, yüzlərlə insanın ürəyində yuvalanıb, qərar tutub, ömür davamı qazanıb. Mən onun ömrünü bizim Azərbaycanda buludlara boy verən yüzillik, minillik çinarlara bənzədərdim: çinarlar heç vaxt yıxılmır, öz içindən qocalaraq ömrünü əbədiyyətə bağışlayır - öləndə də ayaq üstə ölürlər. Ayların, illərin harasından, tarixin hansı səmtindən baxırsan bax, görünür onlar...